Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 46 (1174) 4 mart - 5 mart 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

## GÖYÇAY: MÜASİRLƏŞMƏNİN YENİ MƏRHƏLƏSİ

**(əvvəli ötən saylarımızda)**

> **"... Əlbəttə, Azərbaycanda elmə, təhsilə göstərilən diqqət mütləq öz nəticəsini verəcək. Bizdə savadlılıq yüksək səviyyədədir, savadsız insan yoxdur. Bu, böyük üstünlüyümüzdür. Ancaq bu gün yeni texnologiyalar tətbiq olunur. Uşaqlar da bunu bilməlidirlər. Elmin, təhsilin inkişafı ölkəmizin dayanıqlı inkişafını təmin edəcək".**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

2015-ci ildə ali və orta ixtisas məktəblərinə qəbul qaydaları haqqında məktəblilərə ətraflı məlumatlar verilmiş və məzunların imtahanlara hazırlaşması məqsədi ilə TQDK xətti ilə 4 dəfə sınaq imtahanları keçirilmişdir. Tam orta təhsil bazası əsasında 669 nəfər, o cümlədən 2015-ci il məzunlarından 619 nəfər ali məktəbdə oxumaq üçün sənəd vermiş, onlardan 318 nəfər, o cümlədən 2015-ci il məzunlarından 289 nəfər ali məktəb tələbəsi adını qazanmışlar, 21 nəfər (əvvəlki ildə 12 nəfər) 600 baldan yuxarı, 68 nəfər (əvvəlki ildə 52 nəfər) 500 baldan yuxarı nəticə göstərmişdir. Tam orta təhsil bazasından 89 nəfər orta ixtisas məktəblərinə daxil olmuşdur.

Keçən il ərzində şəhər 1, 3, 4, 7, saylı, Ləkçıplaq kənd 1 saylı, Alxasava, Qaraxıdır, Mallı-Şıxlı, Potu kənd tam orta məktəbləri daha yaxşı nəticələr göstərmişdir.

Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində təhsil islahatlarının həyata keçirilməsi, təlim-tərbiyə proseslərinin gücləndirilməsi, dərslərin keyfiyyətinin yüksəlməsi üçün interaktiv təlim metodlarından ardıcıl və səmərəli istifadə olunur, maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində işlər görülür. 17 min kitab fondu olan kitabxana, altı sinif otağı, internet şəbəkəsinə qoşulmuşdur. Kollecdə 1344 dəfə tələbə təhsil alır. Təlim tərbiyə prosesində 150 nəfər müəllim fəaliyyət göstərir. Təhsil sahəsində islahat proqramının uyğun olaraq keçən dərs ilində tədrisin keyfiyyətinin yüksəldilməsinə diqqət mərkəzində olmaqla tələbələrin mənimsəmə faizi 98, keyfiyyət faizi isə 49 olmuşdur. Kollecdə tələbələrə təkcə bilik verməklə ixtisas öyrətmək deyil, həm də sərbəst yaradıcı düşüncəyə malik demokratik dövlətçilik ideyalarını inamla qoruyan insan hüquqlarının aliliyini yüksək mənəvi dəyərlər kimi qəbul edən müstəqil dövlətimizin ərazi bütövlüyünü bütün milli mənəvi dəyərlərimizi qoruyub yaşada bilən yeni nəsil vətəndaşları yetişdirmək məqsəd üzərində qurulmuşdur.

Göyçay Peşə Liseyi kənd təsərrüfatı və sənaye sahələri üzrə kadrlar hazırlayır. Liseydə hazırda 24 qrupda 8 ixtisas üzərinə ixtisası üzrə 393 nəfər şagird təhsil alır. Yeni dərs ilində ümumi orta təhsil bazasında 3 ixtisas üzrə 80 nəfər, tam orta təhsil bazasından 5 ixtisas üzrə 100 nəfər şagird qəbul olmuşdur. 27 nəfər şagird ödənişli əsasla oxuyur. Liseydə tədrisin keyfiyyətini artırmaq məqsədi ilə metodik kabinetlər və fənn birləşmələri fəaliyyət göstərir.

Liseydə 91 nəfər işçi çalışır. Şagirdlərin təlim və tərbiyəsinin keyfiyyətini yüksəltmək, onların peşələrə yiyələnməsini düzgün təşkil etmək üçün müəyyən işlər görülür. Şagirdlərə dərin bilik, bacarıq vərdişləri və peşə hazırlığı aşılamaq üçün müasir texnologiyalardan istifadə olunur.



Rayon əhalisinə Mərkəzi Xəstəxana 170 çarpayı, uşaq xəstəxanası 55, Təcili və təxirəsalınmaz tibbi yardım stansiyası, Qaraməryəm kənd sahə xəstəxanası 25 çarpayılıq, 16 həkim məntəqəsi, 31 tibb məntəqəsi, Gigiyena və Epidemiologiya Mərkəzi, Təsərrüfat Hesablı Stomatoloji Poliklinikası tibbi xidmət göstərir.

İl ərzində həkim və orta tibb işçilərinin ixtisas səviyyəsinin artırılması məqsədilə 54 həkim, 42 nəfər orta tibb işçisi təkmilləşdirmə kursuna göndərilmiş, 3 həkim, 32 orta tibb işçisi sertifikasiya imtahanlarından uğurlu nəticələr əldə etmiş, 2 nəfər orta tibb işçisi sertifikasiyadan kəsilmişdir.

2015-ci il fevral ayının 2-dən may ayının 1-dək ölkə başçısı cənab İlham Əliyevin tapşırığına əsasən rayonda əhalinin kütləvi müayinə tədbirləri keçirilmiş, 92132 nəfər rayon sakini müayinə olunmuşdur. Bunlardan 24788 nəfəri 18 yaşa qədər olan uşaqlar, 67344 nəfəri 18 yaşdan yuxarı olan əhalidir.

2784 nəfərə ambulator müalicə təyin olunmuşdur ki, bunlardan da 773 nəfəri 18 yaşa qədər olan uşaqlar, 2011 nəfəri 18 yaşdan yuxarı olan əhalidir. 479 nəfər stasionar müalicəyə cəlb olunmuşdur ki, bunlardan da 146 nəfəri 18 yaşa qədər olan uşaqlar, 333 nəfəri 18 yaşdan yuxarı olan əhalidir. 314 nəfər müalicə üçün Bakı şəhərində yerləşən xəstəxanalara göndərilmişdir ki, bunlardan da 75 nəfəri 18 yaşa qədər olan uşaqlar, 239 nəfəri 18 yaşdan yuxarı olan əhalidir.

Keçən il Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müvafiq əmri ilə 18 yaşa qədər uşaqların dispanserizasiyası da keçirilmişdir. Bu məqsədlə bağçalarda, məktəblərdə uşaqlar ixtisaslı həkimlər tərəfindən müayinə olunmuşlar.



Təcili Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına 2015-ci il ərzində 10712 nəfər müraciət etmişdir. Bunlardan 7617 nəfərə çağırış daxil olmuş, 3095 nəfərə ambulator tibbi yardım göstərilmişdir.

Rayon Mədəniyyət və Turizm şöbəsi bir rayon mədəniyyət mərkəzi, 3 kənd folklor evi, bir kənd diyarşünaslıq evi, 5 kənd mədəniyyət evi, 3 kənd folklor klubu, 2 kənd diyarşünaslıq klubu, 1 kənd sənətkarlıq klubu, 13 kənd klubu, 44 kitabxana, Heydər Əliyev Mərkəzi, Tarix diyarşünaslıq muzeyi, xalq şairi Rəsul Rzanın ev muzeyi və uşaq Musiqi məktəbi ilə əhaliyə xidmət göstərir.

Əhaliyə 309 nəfər mədəni-maarif işçisi xidmət göstərir. 2015-ci illər rayon Mədəniyyət və Turizm şöbəsində "Qeyri-maddi mədəni irsin qorunmasına dair" YUNESKO konvensiyasının tövsiyələrinə əsasən və qeyri-maddi mədəni irs sahəsində beynəlxalq təcrübədən, o cümlədən Avropa Şurasının "Avropada mədəniyyət siyasəti və təmayüllərin Kompendiumu" kimi beynəlxalq layihələrdən bəhrələnərək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin "Şəhər (rayon) Mədəniyyət Mərkəzlərinin yaradılması" layihəsi istiqamətində geniş islahatlar aparılmışdır. İslahatlar nəticəsində Göyçay rayon Mədəniyyət və Turizm şöbəsi üzrə Mədəniyyət Mərkəzi və mədəniyyət mərkəzinin filialları qismində fəaliyyət göstərən klub müəssisələrinin məqsədə uyğun profilləşdirilməsi və yenidən adlandırılması Nazirliklə razılaşdırılaraq təsdiq edilmişdir. Bununla bağlı rayon ərazisində fəaliyyət göstərən R.Rza adına rayon mədəniyyət evi Mədəniyyət Mərkəzi adlandırılmış və Alxasava, Bığır, Qızılağac və İnçə kənd mədəniyyət evlərinin adı dəyişdirilərək, Alxasava diyarşünaslıq evi, Bığır, İnçə, Qızılağac folklor evləri mədəniyyət mərkəzinin filiallarında çevrilmişdir. Həmçinin Yalman, Bəydövül kənd klubları diyarşünaslıq klubu, Qaraməryəm kənd klubu sənətkarlıq klubu, Mallı-Şıxlı, Alpout, Qaraxıdır kənd klubları folklor klubuna çevrilmişdir.

Rayon mədəniyyət və turizm şöbəsi əlamətdar tarixi hadisələr, bayram günləri və yubileylərlə bağlı mədəni maarif müəssisələrində bir sıra yaddaqalan tədbirlər həyata keçirmiş, yay mövsümündə Heydər Əliyev adına parkda hər həftə vətəndaşların asudə vaxtının səmərəli keçirilməsi üçün konsertlər təşkil edilmişdir.

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ